

*Mərd olanlar keçər külli varından,*
*Əl götürməz namusundan, arından,*
*Ölənəcən dönə bilməz yarından,*
*Meydan günü başın qoyar can ilə.*
*Vidadi*

Dünya muzeylərinin və maraqlı şəxsi kolleksiya sahiblərinin ixtiyarında olan yüzilliklərin müxtəlif sənət əsərləri sırasında silah nümunələri xüsusi yer tutur. Vəhşi heyvandan müdafiə olunmaq və qida əldə etmək üçün insanın çay daşından ilk düzəltdiyi əşya silah olub. O, misi və onun ərintilərini kəşf edib, daş çapacaqlar əvəzinə tədricən metaldan düzəltdiyi bıçaqlarla silahlandı. Müxtəlif ölçülərdə hazırlanan belə silahlar sonrakı əsrlərdə ortaya gəlmiş xəncər və qılıncın sələfi oldu.

Bütün dövrlərdə əlbəyaxa döyüşlərdə soyuq silahdan məharətlə istifadə edib düşməni öz "qınına" çəkilməyə məcbur etmək, onu məhv edib qələbə çalmaq yalnız möhkəm, iradəli ərlərə qismət olub. Təsadüfi deyil ki, mötəbər döyüşçü layiqli silah seçərdi, işlətdiyi silahın qədr-qiymətini bilərdi, tanınmış ustanın silahına bel bağlardı. Qədimdən böyük hökmdarlar döyüş meydanından qələbə ilə qayıtmış mərd döyüşçülərə mükafatlar ayırardılar və belə vaxtda mahir ustanın əlindən çıxmış silahın ən layiqli, ən sevimli mükafat olması heç də təəccüb doğurmur, çünki "zər qədrini zərgər bilər", - deyiblər.



# Cəsurların silahı

654-cü ildə Bizans imperatoru II Konstantin xüsusi hərbi xidmətlərinə görə inci və qaş-daşları ilə parıltı saçan qızıl qılıncını öz kəmərindən açıb Alban hökmdarı Cavanşirə bəxş edib. Tiyənin səthini örtən naxışların və şəkillərin arasında ustanın təvazökarlıqla gizlətdiyi ad-sanı silahın yüksək növ poladdan hazırlanmasını göstərirdi.

Qafqazla maraqlanan alimlər XV əsrdə Azərbaycanda silah ustalarının hazırladıqları tiyələrin yüksək keyfiyyətindən və şöhrətindən yazırdılar. Silah sənətkarlarının Şamaxıda, Gəncədə, Naxçıvanda və başqa şəhərlərdə işləmələrindən də qədim səyyahlar söhbət açırdılar. Xüsusi poladdan hazırlanmış belə tiyələrin dəstəkləri və qınları müxtəlif üsullarla gümüşlə, sümüklə, daş-qaşla zinətləndirilirdi, simvolik məna verən işarələrlə və mərdlik, şücaət rəmzi daşıyan heyvan rəsmlərilə bəzədilirdi.

Nəzərə almaq lazımdır ki, orta əsrlərdə silah daima işlədildiyinə görə tez köhnəlirdi, tiyəsi kəsərdən düşürdü, yararsız halda olurdu. Amma vaxtılə muzeylərə və şəxsi kolleksiyalara daxil olmuş silahlar lazımınca bərpa ediliblər, olduqca yaxşı saxlanılıblar, hazırda sərgilərdə göz oxşayırlar.

Bern şəhərindəki tarix muzeyində oyulmuş naxışlarla bəzədilmiş yaraşıqlı bir xəncər saxlanılır. Tiyənin üzərindəki qızıla tutulmuş "Əməli Məhəmməd və sahibi Qasım xan" sözləri və naxışların çəkilmə üsulu bu silahın Azərbaycanda döyülməsindən xəbər verir.

Kremlin Silah Palatasında və Dağıstanın Tarix muzeyində eyni cür iki eksponat mövcuddur. Poladın hazırlanma texnologiyasına və yüksək keyfiyyətlə döyülməsinə görə "qırx pillə" adı almış tiyənin döyüş zamanı etibarlı olacağına silah ustası qılıncın qazma bəzəkləri arasında "İsfahanlı Əssəd Ullahın əlindən çıxıb" sözlərlə və balaca dördkünc damğa ilə zəmanət verir.

Müxtəlif səbəblərə görə bir sıra xarici ölkələr kolleksiya işinin marağına və xeyrinə daha tez yiyələnib müxtəlif yollarla öz muzeylərində zəngin silah nümunələri toplaya biliblər. Onlar öz arxivləri haqqında məlumatı tam dərc etməsələr də, məlumdur ki, ehtiyat fondlarında maraqlı tiyələr sırasında Azərbaycan ustalarının öz işləri az deyil və onların bəziləri incə naxışlar arasında mahir ustanın özü haqqında verdiyi balaca məlumat da daşıyırlar. Hər bir halda silah üzərində olan qısa və ya ətraflı yazılar bu gün qiymətli tarixi məxəzlərə çevriliblər, özlərində həkk olunmuş müxtəlif şəxsiyyətlər, sərkərdələr, igid döyüşçülər haqqında olduqca lazımlı məlumat saxlayıblar.

Bir neçə əsr bundan əvvəl kimin fikrinə gələ bilərdi ki, qınının göy firuzələri, tiyəsinin soyuq parıltısı ilə illər boyu düşməni ovsunlayıb onun kələyini kəsən xəncər igidin kəmərini muzeyin yumşaq məxmərinə dəyişəcək?!

Azərbaycan Dövlət İncəsənət muzeyinin ekspozisiyasında qiymətli metaldan düzəldilmiş zinət əşyaları yanında bir neçə gümüş silah nümayiş etdirilir. Naməlum ustanın müxtəlif ornamentlərlə bəzədiyi hər bir soyuq silah özündə hərb və mədəniyyət tarixini saxlayır. Güman etmək olar ki, burada nümayiş etdirilən silahın tiyələrini bəzəyən "xoruz" damğası şöhrət qazanmış ustanın salamatlıq və müvəffəqiyyət arzusudur. Digər ustaların da maraqlı damğaları simvolik mənaya məxsusdur. Tarix muzeyi hücum və müdafiə silahlarının daha zəngin toplusunun sahibi kimi çıxış edir və buradakı kolleksiyanın gözü vaxtilə Qarabağ hökmdarı İbrahim xana məxsus olmuş xəncərdir.

Moskvada Tarix muzeyində saxlanılan XVI əsrin



soyuq silahında ərəbcə "Hüseyn işləyib" yazısı var. Bu kasıb məlumat birdən-birə bir neçə sualın yaranmasına səbəb olur: görəsən silah ustadı harada yaşayıb, hansı məşhur sərkərdəyə qismət olub bu silahı işlətmək, daha hansı muzeydə var bu ustanın əl işi?

Həmin muzeydə başqa bir silah da saxlanılır və o, muzey tamaşaçılarının həmişə diqqət mərkəzində olur. Bu qılıncın tiyəsi üç tərəfdən itilənib, qaranquş quyruğunu xatırladaraq haçalanıb. "Zülfiqar" adlanan bu silah rəvayətə görə Xəlif Əliyə məxsus imiş, döyüş meydanında onun bədxah rəqiblərinin taleyini həll edib mötəbər döyüşlərdə köməyi olubmuş.

Eksponatın bəzəyi olan sıx naxışlar arasında belə sözlər də var: "Həzrət Əli kimi qəhrəman yoxdur, Zülfiqar kimi də silah təkdir". Yəqin ki, belə silahla döyüş meydanında "işləmək" hər insanın işi deyilmiş, - o, xüsusi inam, məharət və hərbi yetkinlik tələb edib!

Rus-türk müharibəsində hilala bənzəyən və eləcə də işıldayan qılınclarla silahlanmış cəsur türk süvariləri rəqiblərinə olduqca çox itki verdilər, amma deyirlər "dəvəyə çimdik kar etməz". Müharibənin başa çatması münasibətilə hərbi əməliyyatlarda fərqlənmiş Patyomkin, Orlov, Suvorov kimi məşhur sərkərdələrini rus komandanlığı ordenlərdən savayı almazları ilə göz qamaşdıran qızıl qılınclarla təltif etməyi vacib bildi.

Saysız-hesabsız müharibələrdə rus çarlarına daha çox igid döyüşçü tələb olunduğundan tezliklə çarın göstərişilə fərqlənmiş zabitlərin silahla təltif oluna bilmələri haqqında qərar qəbul edildi, amma zabitlərin "payına düşən" silahlarda brilyantı və qızıl naxışları əsgər üçün daha dəyərli "CƏSURLUĞA GÖRƏ" sözləri əvəz etdi.

XX əsrin əvvəlindən təqdim edilən bəzi soyuq silahlarda sahibinin göstərdiyi şücaət haqqında daha ətraflı məlumat həkk olunub. 1916-cı ildə rus generalı Brusilova təqdim edilmiş qızıl silah üzərində belə sözlər var: "Volın, Bukovina və Qalisiyada Avstriya və Macar ordusunun darmadağın edilməsinə görə".

Brusilov cəbhəsində daha istedadlı sərkərdə Cəmşid xan Naxçıvanski məharətlə döyüşüb, igid bir süvari kimi "Müqəddəs Georgi" ordenilə yanaşı gümüş silahla mükafatlandırılmışdır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, "əla xidmət və cəsurluğa görə" devizi olan "Müqəddəs Georgi" ordeninə fövqəladə dərəcədə fərqlənən, xüsusi rəşadət, mərdlik, əla əsgəri qəhrəmanlıq göstərən qulluqçular layiq görülürdü və çox vaxt qızıl və gümüş silahla birgə verilirdi.

General Əliağa Şıxlinski topçuluq elminə "Şıxlinski formulu", "Şıxlinski üçbucağı" kimi tanınmış ixtiralarını əlavə etdi. O, bir sıra elmi axtarışlarına görə yüksək hərb sənəti ilə fərqlənən Avropa dövlətlərinin hərbçiləri arasında böyük şöhrətə layiq yer tutdu. Əliağa Şıxlinski hərbi xidmətlərinə görə bir sıra ordenlərlə təltif olundu, baş komandanın xüsusi rəğbətini qazandı. Müharibədə fərqləndiyinə görə "İgidliyə görə" yazısı olan qızıl nişanla və qızıl qılıncla mükafatlandırıldı.

Əliağa Şıxlinski dostu və həmyerlisi Səməd bəy Mehmandarovun nailiyyətləri ilə fəxr edirdi. O, Port-Artur döyüşlərində özünü mərd və bacarıqlı zabit kimi göstərib bir sıra ordenlərlə yanaşı sərkərdələrə məxsus olan brilyantları və "igidliyə görə" yazısı ilə bərq vuran qızıl qılıncla təltif olunmuşdu.

...Dövrdən, quruluşdan asılı olmayaraq havada barıt qoxusu duyulanda, meydan günü gələndə Vətən cəsur, mərd oğullarını əsgər libası geyməyə, silaha sarılmağa səsləyir.

Avropada faşizm silah oynadanda Azərbaycan xalqının igidləri başqa xalqlarla birgə silah götürüb bəşəriyyətin ümumi düşməninə qarşı çıxdılar. Həzi Aslanov, Məzahir Abbasov, İsrafil Məmmədov, Mehdi Hüseynzadə kimi cəsur döyüşçülər ilə Azərbaycan tarixinə daxil oldular.

1943-cü ildə Tehran Konfransında Çörçil qızıl qılıncı Stalinə təqdim edib dedi: "Kral VI Georgi məndən xahiş edib ki, adalarımızda nəsilliklə silah düzəldən ustaların yaratdığı bu qılıncı ingilis xalqı adından sizə təqdim edim". Silah təkraredilməz əfsanəvi mərdliklə fərqlənən Stalinqrad döyüşçülərinə ünvanlansa da əslində hədiyyənin faşizmə qarşı ölüm-dirim müharibəsi aparan və bütün cəbhəboyu inamla vuruşan hər bir qəhrəman döyüşçüyə aid olması nəzərdə tutulmuşdu.

Zamanın hökmü ilə salnaməçinin yazdıqları səhifələr tarixə qərq olub. Hər bir qəhrəman da xudavəndi-aləmin ona bəxş etdiyi ömrünü sürüb, dünyasından köçəndə adını xalqına, silahını oğluna vəsiyyət edib, oğlundan sonra nəvəsinə qismət olub. El də cəsurların arxası ilə gedib.

Heç bir azərbaycanlı özgə torpağına göz dikməyib. Biz ana yurdun bir qarışını belə heç kəsə verməyəcək, qılınca sarılacaq, döyüşlərdə zəfər çalacaq, düşməni yuvasına çəkilməyə məcbur edəcəyik. Çünki haqq işi uğrunda mübarizə aparırıq.

**Kamal BABAYEV**